UOT 78 (075.8)

Ə.Ş.Ələkbərova
Magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
E-mail: esmerelekberova@gmail.com

MUSİQİ DƏRSLƏRİNİN ŞAGİRDİN HƏYAT VƏ YARADICILIĞINA, ESTETİK ZÖVQÜN, TƏRBİYƏNİN FORMALAŞMASINA TƏSİRİ

Açar söz: *estetik tərbiyə, musiqi dünyagörüşü, musiqi məşğələsinin məqsədi, yaradıcı fəallıq*

Məqalədə musiqinin təsiredici gücü və onun insanın daxili aləminə təsiri, ətrafdakı həqiqətə münasibət, tələbənin şəxsiyyətinin və yaradıcılığının hərtərəfli inkişafı və bunun əsasında estetik mədəniyyətinin formalaşması göstərilir.

А.Ш.Алекперова

ВЛИЯНИЕ МУЗЫКАЛЬНЫХ УРОКОВ НА ЖИЗНЬ И ТВОРЧЕСТВО УЧЕНИКА, ЕГО ЭСТЕТИЧЕСКОЕ НАСЛАЖДЕНИЕ, ОБРАЗОВАНИЕ

Ключевое слово: *эстетическое воспитание, музыкальный кругозор, назначение музыкальных упражнений, творческая деятельность.*

В статье раскрыта преобразующая сила музыки и ее влияние на внутреннюю сферу человека, на его отношение к окружающей действительности, всесторонне развитие личностно-творческого потенциала школьника и на этой основе формирование его эстетической культуры.

A.Sh.Alakbarova

THE EFFECT OF MUSIC LESSONS ON THE LIFE AND CREATIVITY OF A STUDENT, AESTHETIC PLEASURE, THE FORMATION OF EDUCATION

Key words: *aesthetic education, music point of view, the purpose of music particular meeting, creative activity*

The article reveals the transforming power of music and its influence on the inner sphere of a person, on his attitude to the surrounding reality, the all-round development of the student's personality and creativity and, on this basis, the formation of his aesthetic culture.

Tərbiyənin ən vacib problemlərindən biri yeniyetmə insan mənəviyyatının formalaşmasıdır. Elmin və texnikanın inkişafı, şəxsiyyətin formalaşması ilə sıx əlaqədardır.

Estetik tərbiyənin güclü təsirə malik vasitələrindən biri də musiqidir. Ümumtəhsil məktəblərimizdə şagirdlərin musiqi tərbiyəsinin əsas növü – musiqi fənnidir. Onlar məktəbdə məhz bu fənn vasitəsilə Azərbaycan, rus, Avropa musiqisi ilə tanış olurlar.

Tədbirlərə hazırlıq zamanı, məktəbdənkənar musiqi məşğələlərində şagirdlərin seçiminə şərait yaradılır. Şagirdin özünün araşdırmacılıq ruhu hərəkətə gəlir bu vasitələ. Müəllimin təşkil etdiyi repertuarı, vokal,instrumental ifaları şagird əzbərləyərək, öyrənərək dünya görüşü inkişaf edir. Çünki mahnıları, musiqiləri öyrənərkən inteqrasiya üsulu çox istifadə olunur. Əgər tələbə xarici mahnını əzbərləyirsə, o mahnı ana dilində tərcümə olunur mənasını anlamaq üçün, mahnının məzmununu başa düşmək və onun obrazını yarada bilmək üçün. Bu vasitə ilə şagird həm xarici dilini inkişaf etdirə,tələffüzünü diksiyasını düzəldə, artikulyasiya aparatından istifadəni formalaşdıra bilər. Obrazı yaradarkən şagird teatr,aktyorluq sahəsində bacarığa yiyələnir. Dil, tarix, təbiətşünaslıq, rəssamlıq və həmin sahələrə aid biliklərə inteqrasiya etmiş olur. Musiqi səs incəsənəti, təfəkkürün səs obrazıdır.

Hazırda, ümumtəhsil məktəblərimizdə şagirdlərin musiqi inkişafı, musiqi tərbiyəsi müxtəlif şəkildə həyata keçirilir. Məsələn, sinifdə tədris olunan musiqi dərsləri sinifdən xaric, məktəbdənkənar musiqili tədbirlər və s. Məktəb şagirdlərə incəsənəti sevməyi və anlamağı öyrətməli, onlarda yaradıcı fəallıq, düşünmək bacarığını tərbiyə etməlidir. Musiqi məşğələlərinin məqsədi məktəblilərdə incəsənətə maraq oyatmaqdan, musiqi informasiyasından baş açmaq, bədii cəhətdən məzmunlu musiqi əsərlərin seçmək bacarığı anlatmaqdan ibarətdir.

Ümumtəhsil məktəblərinin ibtidai sinifləri üçün hazırlanmış Musiqi proqramına bəstəkarların ən yaxşı əsərləri daxil edilmiş, asandan çətinə, sadədən mürəkkəbə prinsipi əsas götürülmüşdür. Proqrama daxil edilmiş mahnılar şagirdlərin yaş xüsusiyyətinə və səs diapazonuna uyğun seçilmişdir. Məktəbdə tədris edilən musiqi fənninin tədrisində aşağıdakı vəzifələr əsas tutulur.

1. Şagirdlərdə Vətənə məhəbbət və milli vətənpərvərlik hissini tərbiyə etmək, musiqi sənətini onlara sevdirmək.

2. Şagirdlərin musiqi dünyagörüşünü genişləndirmək, bədii zövqlərini tərbiyə etmək, onlara musiqi marağını oyatmaq.

3. Şagirdlərin musiqi dinləmə qabiliyyətini inkişaf etdirmək və ilk dərsdən etibarən onlara mahnı oxumaq vərdişləri aşılamaq, şagirdlərdə öz səslərinə qarşı qayğı tərbiyə etmək.

4. Çalğı alətinin müşayiəti olmadan (a kapella) və ya müşayiət ilə şagirdləri birsəsli və ikisəsli mahnı oxumağa alışdırmaq.

Ümumtəhsil məktəblərində musiqi dərslərində şagirdlər təkcə mahnı oxumaqla və ya musiqi savadı almaqla məşğul olmurlar. Onlar eyni zamanda müəllimin ifasında yaxud texniki vasitədən istifadə etməklə musiqi dinləyirlər. Musiqi dərslərində müəllimin qarşısında duran əsas vəzifələrdən biri də musiqi əsərlərini diqqətlə və maraqla dinləməyi öyrətməkdir. Musiqi dinləmənin böyük əhəmiyyəti vardır. Çünki bu şagirdin musiqi səviyyəsinin inkişaf etməsinə səbəb olur.

Əgər I və II siniflərdə şagirdlər əsasən uşaqlar üçün yazılmış əsərləri dinləyirlərsə, artıq III sinifdən başlayaraq onları kütləvi mahnılarla klassik və azərbaycan mahnılarının böyüklər üçün yazılmış əsərləri ilə tanış etmək olar. Dinlənilən musiqi əsərini qavrayıb mənimsəməkdən ötrü müəllim şagirdlərdə musiqiyə qarşı maraq oyatmağı, dinlədikləri musiqini sevdirməyi bacarmalıdır.

Öz şəxsi iş təcrübəmnən gördüklərimə görə də deyə bilərəm ki, müəllimin hər hansı alətdə ifasını, şəxsi səsiylə mahnını ifa etməsi şagirddə böyük maraq doğurur. Müəllimə baxaraq şagird öyrənməyə can atır, həvəslənir. Əgər müəllim uşağı həvəsləndirirsə, onların duyğularını anlayıb hislərinə sirayət edə bilirsə, şagirdlərin istedad, bacarıqlarını kəşf edirsə, məktəbdən kənar bu istedad üzərində işləyib onları televiziya, radio yarışmalarına, verlişlərinə çıxara bilər. Bununla müəllim həm uşağı həvəsləndirə, həm də onun yaradıcılığa marağını artıra və şagirdin şəxsi inkişafına yön verə bilər.

Musiqi tərbiyəsinin vəzifələrinin həlli o şərtlə mümkündür ki, musiqi məşğələləri maraqlı qurulsa, musiqinin qavranılıb dərk edilməsində emosional gərginlik və maraq mühiti yaradılsın. Musiqi o zaman estetik və tərbiyəvi təsir göstərir ki, məktəblilər musiqini əsl mənada dinləyib onun haqqında düşünməyi öyrənsinlər.

Məktəblilərin musiqi dünyagörüşünü genişləndirmək məqsədilə musiqi məktəbində təhsil alan şagirdlərin ifasında musiqi dinləmə təşkil etmək lazımdaır. Bu digər şagirdlərin marağına səbəb olur, söhbətdə fəal iştirak edirlər, öz fikirlərini söyləyirlər. Televiziya, radio musiqi verlişlərinə kollektiv surətdə qulaq asmaq, xorla oxumaq, musiqili tamaşaya baxış və musiqili səhnəciklərin hazırlanması, müəyyən mövzu ilə bağlı musiqili tədbirlərdə iştirak etmək və s. bu kimi işlər məktəblilərin musiqiyə olan cavabını artırır, dinlənilən əsərlərin emosional qavranılmasına səbəb olur.

ƏDƏBİYYAT

1. O. Rəcəbov, İ. Miriyeva-"Musiqi və mənəvi tərbiyə". Bakı, 1995
2. https://az. m. wikipedia. org
3. www. musigi-dunya. az
4. J.Qədimova – Musiqi pedaqogikası: müasirlik və tarixilik. Bakı, 2012

Məqalənin redaksiyaya daxil olma tarixi: 15.06.2018
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 28.06.2018
Məqalənin çapa qəbul olunma tarixi: 05.07.2018
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.